Maliyyə hesabatlarına dair
QEYDLƏR

1. CƏMİYYƏT HAQQİNDA ÜMUMİ MƏLUMAT

“Rəvan Sığorta” ASC-nin ilkin qeydiyyatı “Duoble İnsurance Company” Sığorta Şirkəti QTSC kimi 16 mart 1998-ci il tarixində qeydiyata alınmışdır. 22 dekabr 2004-cü il tarixində adını dəyiəşərək “Star Alyans Sığorta Şirkəti” Qapalı Səhmdar Cəmiyyəti kimi fəaliyyətini davam etdirmiş. 15 avqust 2008-ci il tarixdə Azərbayacan Respublikası Maliyyə Nazirliyi tərəfindən sığorta fəaliyyətinin həyata keçirilməsi üçün 042484 saylı müddətsiz lisenziya verilmişdir. “Star Alyans Sığorta Şirkəti” Qapalı Səhmdar Cəmiyyəti 21 avqust 2009-cu il tarixdə “Rəvan Sığorta”ASC-yə çevrilərək, Azərbaycan Respublikası Vergilər Nazirliyi Bakı şəhəri Vergilər Departamentinin Kommersiya Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

Cəmiyyət hal-hazırda Sığorta fəaliyyətinin həyata keçirilməsinə dair Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən verilmiş 000271 saylı, 15 oktyabr 2009-cu il tarixli lisenziya əsasında fəaliyyət göstərir.

Cəmiyyətin təsisçiləri:
“NBCBank” ASC – 760022.08 azn (yeddi yüz əlli min iyirmi iki manat, səkkiz qəpik) olmaqla 8.54%
“Nurgün Grup” MMM – 4370047.36 azn (dörd milyon üç yüz yetmiş min qırx yeddi manat, otuz altı qəpik) olmaqla 49.10 %
“Nurgün Motors” MMC – 3770001.76 azn (üç milyon yeddi yüz yetmiş min bir manat, yetmiş altı qəpik) olmaqla 42.36%

Cəmiyyətin Nizamnaməsinə aşağıdakı tarixlərdə və formalarda dəyişiklik edilərək, Azərbaycan Respublikası Vergilər Nazirliyi Bakı şəhər Vergilər Departamentinin Kommersiya Hüquqi Şəxslərinin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən təsdiqlənmişdir: 29 aprel 2010-cu ildə 3 000024 (üç milyon iyirmi dörd) manat həcmində, hər biri 30,60 (otuz manat 60 qəpik) manat olmaqla 98040 (doxsan səkkiz min qırx) ədəd adi sənədsiz adlı səhmdən ibarət olub, 24 oktyabr 2011-ci ildə 4 000032 (dörd milyon otuz iki manat) manat həcmində, hər biri 40,80 (qırx manat 80 qəpik) manat olmaqla 98040 (doxsan səkkiz min qırx) ədəd adi sənədsiz adlı səhmdən ibarət olub. 21 may 2014-cü ildən etibarən isə 8 900 071,20 (səkkiz milyon doqquz yüz min yetmiş bir manat 20 qəpik) manat həcmindədir və hər biri 40.8 manat olmaqla 218 139 ədəd sənədsiz adi adlı səhmdən ibarətdir.

Cəmiyyətin səhmlərinin reyestrsaxlayıcısı: “Milli Depozit Mərkəzi” QSC (Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, Bül-Bül prospekti 19. Lisenziya: reyestrsaxlayıcı fəaliyyətin həyata keçirilməsi üçün 12 fevral 2010-cu il tarixdə 5 il müddətinə verilmiş 044824 saylı lisenziya ; 13fevral 2015-ci il tarixdə5 il müddətinə verilmiş 149 saylı lisenziya)

Cəmiyyətin digər hüquqi şəxslərin nizamnamə kapitalında payı: “Sabah” İKF – VÖEN 1500273261, Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu, Heydər Əliyev prospekti 103A; – 45%, 675027 (altı yüz yetmiş beş min iyirmi yeddi) manat, 1.35 pay, əmlak şəklində.

Cəmiyyətin hüquqi ünvanı: Bakı şəhəri, Fətəli xan Xoyski 104A

2. MÜHÜM UÇOT SIYASƏTLƏRININ XÜLASƏSI

Hesablamanın əsasları
Maliyyə hesabatları ədalətli dəyər prinsipi əsasında hazırlanmışdır. Maliyyə hesabatları Azərbaycan manatı ilə (AZN) təqdim edilmişdir.

Maliyyə hesabatlarının tərtib edilməsinin əsas prinsipləri
Hazırki maliyyə hesabatları Milli Maliyyə Hesabatı Standartlarına ("MMHS") uyğun olaraq hazırlanmışdır.
a) Mühüm uçot qiymətləndirmələri, ehtimalları və fərziyyələri

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması menecmentdən hesabat tarixinə hesabatda əks olunmuş gəlirlərə, xərclərə, aktivlərə və öhdəliklərə və şərti öhdəliklərin açıqlanmasına təsir edən qiymətləndirmələr, ehtimallar və fərziyyələri fomalaşdırmağı tələb edir. Lakin bu qiymətləndirmələr və ehtimalların qeyri-dəqiqliyi gələcəkdə aktiv və öhdəliklərin balans dəyərində əhəmiyyətli düzəlişlər tələb edə biləcək nəticələrə gətirib çıxara bilər.

Qiymətləndirmələr
Cəmiyyətin uçot siyasətlərinin tətbiq prosesində menecment maliyyə hesabatlarında tanınmış məbləğlərə çox əhəmiyyətli təsiri olan aşağıdakı qiymətləndirmələri həyata keçirmişdir:

Ehtimal və fərziyyələr
Növbəti maliyyə ili çərçivəsində balans hesabatı tarixinə aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli dəyişiklikliyə gətirib çıxara biləcək gələcəyi əhatə edən və ehtimallardakı qeyri-müəyyənliyin əhəmiyyətli mənbəyini təşkil edən əsas fərziyyələr aşağıdakılardır:

Torpaq, tikili və avadanlıqlar
Torpaq, tikili və avadanlıqlar faydalı istifadə müddəti üzrə amortizasiya olunur. Faydalı istifadə müddəti isə torpaq, tikili və avadanlıqların gözlənilən istifadə sxeminə, istismar amillərindən asılı olan fiziki köhnəlməsinə əsasən formalaşır. Menecment əhəmiyyətsiz hesab etdiyindən torpaq, tikili və avadanlıqlar üçün son qalıq dəyəri nəzərdə tutmamışdır.

Ümidsiz borclar üzrə əməliyyatlar
Şübhəli borclar cəmiyyətin tələb olunan kapitalının formalaşmasında istifadə olunmur və ehtiyatların təmin edən vəsait kimi nəzərə alınmır. Belə olan halda debitor borcların həddindən çox göstərilməsinə (şişirdilməsinə) zəmin yaratmamaq üçün maliyyə vəziyyəti haqqında hesabatdan silinir. Ümidsiz borclar bu kateqoriyaya aid edilməmişdən öncə bütün parametrlər üzrə analiz edilir və borcun ümidsiz olmağı təstiqləndikdən sonra xərc hesabına bağlanılır.

b) Ehtiyatlar

Ehtiyatlarlar Sığorta Nəzarəti orqanının təstiq etdiyi qaydalara uyğun olaraq formalaşdırılır.
Cəmiyyətimiz sığortanın *Qeyri Həyat* sahəsi üzrə fəaliyyət göstərir və aşağıdakı ehtiyatlara dair məcburi ayırmalar həyata keçirir.

1. Qazanılmamış sığorta haqları ehtiyatı
2. Baş vermiş lakin bildirilməmiş zərərlər ehtiyatı
3. Bildirilmiş lakin tənzimlənməmiş zərərlər ehtiyatı
4. Sabitləşdirici ehtiyat

c) Torpaq, tikili və avadanlıqlar

Torpaq, tikili və avadanlıqlar ilkin dəyərlə, yığılmış amortizasiya və müəyyən olunmuş qiymətləndirmə üzrə zərələr çıxılmaqla uçota alınır. İlkin dəyərə alış qiyməti, rüsumlar, tariflər və onların tələb olunduğu vəziyyətə və lazımi istismar yerinə gətirilməsi ilə bağlı birbaşa xərclər daxildir. Torpaq amortizasiya olunmur, tikili və avadanlıqlar aşağıdakı faiz dərəcələri tədbiq edilməklə düz xətt metodu ilə amortizasiya olunur:

Binalar, tikililər və qurğular	7%
Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası	25%
Nəqliyyat vasitələri	25%
Maşınlar və avadanlıqları	20%

	Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası	Maşın və avadanlıqlar	Nəqliyyat vasitəsi	Binalar, tikililər və qurğular
01.01.2017-ci il tarixə olan ilkin dəyər	25820.00	34395.00	92000.00	92000.00
01.01.2017-ci il tarixə yığılmış amortizasiya	537.92	573.25	1916.67	1916.67
01.01.2017-ci il tarixə mövcud olan dəyər	25282.08	33821.75	90083.33	90083.33
Dövr ərzində alış	0	0	0	3180800.00
Dəyərinin artırılmas	0	0	0	0
Dövr ərzində satış	0	0	0	0
Dövr ərzində silinən	0	0	0	0
Dövr ərzində amortizasiya	6455.01	6879.00	22999.98	135221.33
31.12.2017-ci il tarixə yığılmış amortizasiya	6992.93	7452.25	24916.65	135221.33
31.12.2017-ci il tarixə mövcud olan dəyər	18827.07	26942.75	67083.35	3045578.67

e) Qeyri-maddi aktivlər

İlkin dəyər modeli
Qeyri-maddi aktivlər ilkin dəyərlə, yığılmış amortizasiya və hər hansı qiymətləndirmə üzrə zərərə çıxılmaqla uçota alınır. Faydalı istifadə müddəti qeyri-müəyyən olan aktivlər 10%, istifadə müddəti məlum olan isə illər üzrə istifadə müddətinə mütənasib məbləğdə amortizasiyası olunur. Mənfəət və Zərər haqqında hesabatda əks olunur. Kapitallaşdırılmış qeyri-maddi aktivlər üzrə sonrakı məsrəflər yalnız aid olduğu xüsusi aktivdə əks olunan gələcək iqtisadi səmərəni artırarsa kapitallaşdırılır.

	Qeyri maddi aktivlər
01.01.2017-ci il tarixə olan ilkin dəyər	52300.00
01.01.2017-ci il tarixə yığılmış amortizasiya	19557.30
01.01.2017-ci il tarixə mövcud olan dəyər	32742.70
Dövr ərzində alış	0
Dəyərinin artırılmas	0
Dövr ərzində satış	0
Dövr ərzində silinən	0
Dövr ərzində amortizasiya	3215.29
31.12.2017-ci il tarixə yığılmış amortizasiya	22772.59
31.12.2017-ci il tarixə mövcud olan dəyər	29527.41

e) Aktivlərin qiymətdən düşməsi

Torpaq, tikili və avadanlıqlar əgər hadisə və şəraitdəki dəyişikliklər göstərərsə ki, aktivin balans dəyəri bərpa edilə bilinmir, o zaman qiymətdən düşməsinin olub-olmamasının müəyyən olunması üçün nəzərdən keçirilir. Aktivin balans dəyəri onun bərpa olunan dəyərlərindən çox olarsa, o zaman Mənfəət və Zərər haqqında hesabatda qiymətdən düşmə üzrə zərər tanınır.

f) Vergi qoyma

Mənfəət vergisi üzrə xərclərə cari və təxirə salınmış vergi xərcləri daxildir. Vergitutulan mənfəət Mənfəət və Zərər haqqında hesabatda göstərilən uçot mənfəətdən fərqlənir, çünki uçot mənfəətinə gələcək illərdə vergiyə cəlb olunacaq və ya çıxılacaq gəlir və ya xərc maddələrini, həmçinin heç vaxt vergiyə cəlb olunmayacaq və ya əvəzləşdirilməyəcək maddələr daxildir. Cəmiyyətin cari vergi xərcləri balans hesabatı tarixinə təyin olunmuş vergi dərəcəsinə görə hesablanmışdır.
Təxirə salınmış vergi maliyyə hesablarındakı aktiv və öhdəliklərin balans dəyəri ilə vergitutulan mənfəətin hesablanması üçün ödənilməli və ya bərpa edilən vergi məbləğidir və vergi bazası müvafiq vergitutulan mənfəətin hesablanması üçün istifadə edilmişdir. Təxirə salınmış vergi öhdəlikləri ümumilikdə bütün vergitutulan müvəqqəti fərqlər üçün, təxirə salınmış vergi aktivləri isə yalnız çıxılan müvəqqəti fərqlərlə bağlı gələcəkdə bərpa olunmalı vergiyə cəlb olunan mənfəət səviyyəsində tanınır. Belə aktiv və öhdəliklər müvəqqəti fərqlər vergitutulan mənfəəti və uçot mənfəətinə təsir göstərən digər aktiv və öhdəliklərin ilkin tanınmasından yaranarsa tanınmır. Təxirə salınmış vergi aktivləri hər hesabat tarixində nəzərdən keçirilir.
Azərbaycan Respublikası Vergi Məcəlləsinin müvafiq vergi tələblərinə tam olaraq riayət olunduğu üçün maliyyə hesabatlarında müvəqqəti fərqlər yaranmır. Vergi Məcəlləsinə uyğun olaraq Cəmiyyətin fəaliyyətində tətbiq olunan müxtəlif vergi növləri (əmlak vergisi, mənfəət vergisi, torpaq vergisi) vardır. Bu vergilər əməliyyat xərclərinin tərkib hissəsi kimi Mənfəət və Zərər haqqında hesabatda əks olunmuşdur.

g) Maliyyə icarəsi

Maliyyə icarəsi aktiv üzrə mülkiyyət hüquqlarına aid olan bütün risk və mükafatların ötürülməsini təmin edən icarə növüdür. Mülkiyyət hüququ sonda həm keçə, həm də keçməyə bilər. Icarənin maliyyə və ya əməliyyat icarəsi olması icarə müqaviləsinin formasından deyil, əməliyyatın məzmumunundan asılıdır.
Icarə aşağıdakı şərtlər yerinə yetirildiyi halda maliyyə icarəsi kimi təsnifləşdirilir:
- icarə müqviləsinin sonunda icarəyə verilmiş aktiv üzrə mülkiyyət hüququ icarəçiyə keçir;
- Icarəçinin, aktivi ədalətli dəyərindən əhəmiyyətli dərəcədə aşağı olacağı gözlənilən qiymətə almaq hüququ həmin hüququn reallaşma tarixinə mövcuddur və icarəçinin həmin hüquqdan istifadə edəyəcəyini icarə müddətinin əvvəlində əsaslandırılmış şəkildə bildirmək mümkündür;
- Icarə müddəti, hətta əgər mülkiyyət hüququ ötürülmürsə belə, aktivin faydalı istifadə müddətinin əhəmiyyətli dərəcədə böyük hissəsini təşkil edir;
- Icarə şərtlərinin qəbul edilməsi tarixində minimal icarə ödənişlərinin diskontlaşdırılmış dəyəri icarəyə verilən aktivin heç olmasa ədalətli dəyərinə bərabərdir;
- Icarədə olan aktiv elə səciyyəvi xüsusiyyətə malikdir ki, o xüsusi modifikasiya edilmədə, yalnız icarəçi bu aktivdən istifadə edə bilər.

İcarə müqaviləsinin başlanması tarixində cəmiyyət icarədar kimi maliyyə icarəsini balansda müqavilə tarixinə müqavilə obyektinin ədalətli dəyəri və minimal icarə ödənişlərinin diskontlaşdırılmış dəyərindən az olanının məbləğində aktiv və öhdəlik tanıyır. Daha sonra minimal icarə ödənişləri maliyyə məsrəfləri və ödənilməmiş öhdəliklərin azalması arasında bölüşdürülür. Şərti icarə ödənişləri onların yarandığı dövrdə xərc kimi tanınır. Maliyyə icarəsinə götürülmüş aktivlər üzrə amortizasiya siyasəti mülkiyyətdə olan torpaq, tikili və avadanlıqların amortizasiya siyasəti ilə eynidir.
Maliyyə icarəsi ödənişlərinin faiz hissəsi aid olduğu dövrdə mənfəət və zərər haqqında hesabatda əks olunur.

(h) Gəlirin tanınması:

Bağlanmış sığorta müqavilələri üzrə ümumi sığorta haqları, müqavilələrin müddəditdən asılı olmayaraq birbaşa sığorta müqavilələrdə nəzərdə tutulan tam müddət üzrə alınacaq cəmi sığorta haqlarından ibarətdir. Sığorta haqlarından gəlirlər sığorta müddəti başladığı tarixdə tanınır.

i) Xərclərin tanınması:

Xərclər mənfəət və zərər haqqında hesabatda onların yarandığı dövr üzrə tanınır.

j) Əmək fəaliyyətinin başa çatmasından sonra mükafatlar

Balans tarixinə əmək fəaliyyətinin başa çatmasına görə mükafatlar hesabat tarixinə işçilərin iş stajına, cari və əlavə əmək haqqına əsasən Azərbaycan Respublikası Əmək qanunvericiliyinə uyğun olaraq hesablanır. İşdən çıxma üzrə müavinətlər yarandığı zaman xərc kimi tanınır.

k) Qiymətləndirilmiş ehtiyatlar

Qiymətləndirilmiş ehtiyatlar keçmiş hadisələrin nəticəsi olan öhdəliklərə (hüquqi və konstruktiv) sahib olduqda, öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi səmərələri təcəssüm etdirən resursların tələb olunacağı ehtimal olunduqda və öhdəliyin məbləği etibarlı qiymətləndirilə bildikdə öhdəlik kimi tanınır.

l) Xarici valyutalar

Xarici valyutada həyata keçirilən əməliyyat ilkin tanınma zamanı əməliyyat valyutasında, xarici valyutada olan məbləğə əməliyyat valyutası ilə xarici valyuta arasında əməliyyatın keçirildiyi tarixdə mövcud olan spot məzənnəsini tətbiq etməklə uçota alınır.
Balans hesabatı tarixinə xarici valyuta ilə olan monetar maddələr hesabat tarixinə məzənnədən istifadə etməklə yerli valyutaya çevrilir. Məzənnə fərqlərindən yaranan gəlir və xərclər Mənfəət və Zərər haqqında hesabatda əks olunur.
Xarici valyuta ilə olan qeyri-monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud olan məzənnəyə əsasən yerli valyutaya çevrilir.

m) Maliyyə alətləri

Maliyyə aktivləri və ya öhdəlikləri muhasibat balansında yalnız maliyyə alətinin müqavilə müddəalarına tərəf olan kimi tanınır.
Ilkin tanınmadan sonra maliyyə aktivləri (i) birbaşa mənfəət və zərərdə ədalətli dəyərlə əks olunan; (ii) müddəti başa çatmış investisiyalar; (iii) kreditlor və debitorlar; və (iv) satış üçün sərəncamda olan maliyyə aktivləri kimi təsnifləşdirilir.
Müddəti başa çatmış investisiyalar, kreditor və debitorlarda olduğu kimi qalıq dəyəri ilə əks olunur, effektiv faiz dərəcəsi ilə hesablamaqla yaranan gəlir və zərər haqqında hesabatda tanınır.
Balans tarixində maliyyə aktivinin və maliyyə aktivləri qrupunun qiymətdən düşməsini müəyyən etmək üçün qiymətləndirir.
Əgər aktivlər amortizasiya edilmiş dəyər ilə uçota alınıbsa, qiymətdəndüşmə, aktivin ilkin dəyəri və maliyyə aktivinin ilkin tanınmada tətbiq edilən həmin effektiv faiz dərəcəsi ilə hesablanmış nəzərdə tutuluan gələcək nağd pul hərəkətinin diskontlaşdırılmış dəyəri arasındakı fərq kimi ölçülür. Lakin maliyyə aktivlərinin ədalətli dəyərini müəyyən etmək mümkün deyilsə və olnlar ilkin dəyəri ilə uçota alınıbsa, qiymətdəndüşmə zərəri maliyyə aktivinin ilkin dəyəri və bu cür maliyyə aktivi üçün cari bazar mənfəət normasında hesablanmış gözlənilən gələcək pul vəsaitlərinin diskontlaşdırılmış dəyəri arasındakı fərq kimi müəyyən edilir.
Satış üçün mövcud olan maliyyə aktivləri ədalətli dəyərindəki dəyişikliklərdən yaranan gəlir və ya xərclərin kapitalda tanınması halları istisna olmaqla gəlir və xərclər mənfəət və zərər haqqında hesabatda tanınır. Qeyd edək ki, silinmə zamanı kapitalda tanınmış gəlir və xərclər bölüşdürülməmiş mənfəətə köçürülür.
Maliyyə öhdəlikləri kimi xarakterizə olunan kreditor borcları ilkin olaraq ədalətli dəyəri ilə əks olunurlar.

n) Nağd pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın hazırlanması məqsədi ilə nağd pul vəsaitləri və onun ekvivalentləri kassa, bank hesablarındakı pullar aid edilir.

3. Maliyyə vəziyyəti haqqında hesabat

Forma № 1S

Azərbaycan Respublikasının
Maliyyə Nazirliyinin
5 dekabr 2008-ci il
İ-125 №-li əmri ilə təsdiq edilmişdir.

SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MÜHASİBAT BALANSI (illik)

AKTİVLƏR	**30.12.16**	**30.12.17**
I. UZUNMÜDDƏTLİ AKTİVLƏR		
Torpaq, tikili və avadanlıqlar	149187,16	3158431.84
Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması	0	0
Daşınmaz əmlaka investisiyalar	350000,00	350000,00
Qeyri-maddi aktivlər	32742,70	29527.41
Təxirə salınmış vergi aktivləri	0	0
Uzunmüddətli debitor borcları	0	0
Uzunmüddətli maliyyə aktivləri:	0,00	**1016030.66**
dövlət qiymətli kağızları	0,00	1016030.66
qeyri-dövlət qiymətli kağızları	0	0
sair maliyyə aktivləri	0	0
İştrak payı metodu ilə uçota alınmış investisiyalar	**675027,00**	**675027,00**
Təsisçi və yə səhmdarlarla hesablaşmalar	0	0
Sair aktivlər	**0**	**1031085.00**
Cəmi uzunmüddətli aktivlər	**1206956,86**	**6260101.91**
II. QISAMÜDDƏTLİ AKTİVLƏR	0	0
Ehtiyatlar	0	0
Debitor borcları:	**844864,61**	**4590820.94**
birbaşa sığorta üzrə	602874,03	129283.05
təkrarsığorta əməliyyatları üzrə :	**24822,68**	**9646.63**
- təkrarsığortaçı üzrə	24822,68	9646.63
- təkrarsığortalı üzrə	0	0
asılı təşkilatlar üzrə	0	0
büdcə üzrə	85561,28	48096.60
iddia tələbləri üzrə	0	0
işçi heyəti üzrə	0	0
sığortalılara verilən borclar üzrə	0	0
sair debitorlar	131606,62	4403794.66

Pul vəsaitləri və onların ekvivalentləri:	**8519313,07**	**3350237.67**
kassa	2406391,38	14184.46
hesablaşma hesabı	27822,65	26032.22
valyuta hesabı	99,04	20.99
depozit hesablar	6085000,00	3310000.00
sair pul vəsaitləri	0	0
Qısamüddətli maliyyə aktivləri:	0	0
dövlət qiymətli kağızları	0	0
qeyri-dövlət qiymətli kağızları	0	0
sair maliyyə aktivləri	0	0
Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:	**70567,58**	**27993.49**
həyat sığortası sahəsi üzrə	0	0
qeyri-həyat sığortası sahəsi üzrə	70567.58	27993.49
Sair qısamüddətli aktivlər:	1600000,00	**0**
gələcək hesabat dövrlərinin xərcləri	0	0
verilmiş avanslar	1600000,00	0
təhtəl hesablar	0	0
Sair aktivlər	4000000,00	**0**
Cəmi qısamüddətli aktivlər	**15034745.26**	**7969052.10**
CƏMİ AKTİVLƏR	**16241702.12**	**14229154.01**
K A P İ T A L V Ə Ö H D Ə L İ K L Ə R	**30.12.16**	**30.12.17**
I. KAPİTAL		
Ödənilmiş nominal (nizamnamə) kapitalı	**8900071,20**	**8900071,20**
Emissiya gəliri	0	0
Geri alınmış kapital (səhmlər)	0	0
Kapital ehtiyatları:	**144719,80**	**126778.88**
yenidən qiymətləndirilmə üzrə ehtiyat	144719,80	126778.88
digər kapital ehtiyatları	0	0
Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)	**4513660.09**	**3472372.82**
Hesabat dövründə xalis mənfəət (zərər)	278929.46	-1041287.26
Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər	0	0
Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)	4234730.63	4513660.08
Elan edilmiş dividendlər	0	0
Cəmi kapital	**13558451.09**	**12499222.90**
II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR	0	0
Sığorta ehtiyatları:	**2520420.09**	**1534314.93**
Həyat sığortası sahəsi üzrə :	**0**	**0**
Qeyri-həyat sığortası sahəsi üzrə:	**2520420.09**	**1534314.93**
Qarşısıalınma tədbirləri fondu	0	0

Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər	0	0
Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər	0	0
Təxirəsalınmış vergi öhdəlikləri	0	0
Kreditor borcları :	**0**	**129330.78**
əməyin ödənilməsi üzrə	0	0
büdcə üzrə	0	0
sosial sığorta və təminat üzrə	0	0
digər məcburi ödənişlər üzrə	0	0
asılı təşkilatlar üzrə	0	0
sair kreditorlar	0	129330.78
Sair uzunmüddətli öhdəliklər:	**0**	**0**
gələcək hesabat dövrünün gəlirləri	0	0
alınmış avanslar	0	0
Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:	**10760,21**	**0**
təkrarsığortaçı üzrə	10760,21	0
təkrarsığortalı üzrə	0	0
Təsisçi və yə səhmdarlarla hesablaşmalar	0	0
Sair öhdəliklər	**15196,15**	**0**
Cəmi uzunmüddətli öhdəliklər	**2546376.45**	**1663645.71**
III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR	0	0
Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər	0	0
Qısamüddətli qiymətləndirilmiş öhdəliklər	0	0
Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər	0	0
Kreditor borcları:	**112345.72**	**66285.40**
əməyin ödənilməsi üzrə	2369,67	0
büdcə üzrə	70220,18	23919.76
sosial sığorta və təminat üzrə	323,14	0
digər məcburi ödənişlər üzrə	0	0
asılı təşkilatlar üzrə	0	0
sair kreditorlar	39432.73	42365.64
Sair qısamüddətli öhdəliklər:	**0**	**0**
gələcək hesabat dövrünün gəlirləri	0	0
alınmış avanslar	0	0
Təsisçi və yə səhmdarlarla hesablaşmalar	0	0
Sair öhdəliklər	**24528,86**	**0**
Cəmi qısamüddətli öhdəliklər	**136874.58**	**66285.40**
CƏMİ ÖHDƏLİKLƏR	**2683251.03**	**1729931.11**
CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR	**16241702.12**	**14229154.01**
Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi*		0

4. Əsas əməliyyat gəlirləri və xərcləri

Forma № 2S

Azərbaycan Respublikasının
Maliyyə Nazirliyinin
5 dekabr 2008-ci il
İ-125 №-li əmri ilə təsdiq edilmişdir.

SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MƏNFƏƏT və ZƏRƏRİ HAQQINDA HESABAT (illik)

Gəlirlər	Məbləğ
Əsas əməliyyat gəliri:	**704500.60**
birbaşa sığorta üzrə sığorta haqları	690342.51
təkrarsığorta üzrə təkrarsığorta haqları	0
sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə	14158.09
təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə	0
Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)	**943531.07**
İnvestisiya gəlirləri üzrə	**286781.92**
Subroqasiya gəlirləri	**198852.74**
Sair gəlirlər	**1682.52**
CƏMİ GƏLİRLƏR	**2135348.85**
Xərclər	
Əsas əməliyyat xərcləri:	**1154522.22**
sığorta ödənişləri və sığorta məbləğləri üzrə	546891.34
qaytarılan sığorta haqları üzrə	542710.87
tənzimləmə xərcləri	1960.00
təkrarsığortaya verilmiş sığorta haqları üzrə	2689.50
qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə	
sığorta fəaliyyəti üzrə sair xərclər	60270.51
İşlərin aparılması xərcləri	**589588.45**
Sair xərclər	**1432525.44**
CƏMİ XƏRCLƏR	**3176636.11**
Maliyyə mənfəəti (zərəri)	**-1041287.26**
Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi	**0**
Vergiqoyulmadan əvvəl mənfəət (zərər)	**-1041287.26**
Mənfəət vergisi	**0**
Hesabat dövründə xalis mənfəət (zərər)	**-1041287.26**

5. Büdcəyə və büdcədən kənar ödənişlər:

Göstəricilərin adları	Hesablanmışdır	Faktiki ödənilmişdir
Mənfəətdən vergi	0	58044.14
Əlavə dəyər vergisi	0	0
Gəlir vergisi	13896.10	13546.15
Əmlak vergisi	16285.38	357.00
Torpaq vergisi	520.00	0
Aksizlər	0	0
Ödəmə mənbəyində vergi (10%)	26714.39	26714.39
Sair vergilər	0	0
Sosial sığorta və təminat	37473.35	40166.16
Məcburi ödənişlər (0,3%)	1406.02	1406.02
İqtisadi sanksiyalar	10544.71	10544.71

6. Pul vəsaitlərinin hərəkəti

Tarix:		2016	2017
1	Yığılmış ümumi sığorta haqqları	829893,37	663622.53
2	Sığorta ödənişlərində təkrarsığortaçının payı	102724,79	29334.03
3	Ümumi sığorta ödənişləri	-809046,9	-571944.39
4	Vaxtından əvvəl xitam verilmiş sığorta müqavilələri üzrə xərc	-88309,46	-49785.57
5	Təkrarasığortacıya verilmiş risklər üzrə sığorta haqları	-43051,22	-27355.56
6	Reqress iddialarından alınan pul vəsaitləri	225868,27	198852.74
7	Malgöndərənlərə və xidmət göstərənlərə, işçilərə ödənilən pul vəsaitləri, və sair ödəmələr	-755165,93	-473249.77
8	Alınmış digər gəlirlər	8400	19635.00
9	Ödənilmiş digər xərclər	-939270,61	31611.01
10	Verilmiş avanslar	-5600000	4568915.00
11	Müəssisənin fəaliyyətinə aid olan vergilər	-186964,22	-98661.68
12	*Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti üzrə yekun.*	***-7.254.921,91***	***4290973.34***
İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitləri			
13	Müəssisələrin səhmlərinin alınması	0	0
14	Alınmış dividendlər	0	0
15	Alınmış faizlər	219899,92	286781.92
16	Əsas vəsaitlərin və qeyri maddi aktivlərin alınması.	-599	-3180800.00
17	Əsas vəsaitlərin və qeyri maddi aktivlərin satışından əldə olunan pul vəsaitləri.	1000	0
18	Qısamüddətli korporativ istiqraz vərəqələrinin alınması.	0	-1016030.66
19	Qısamüddətli korporativ istiqraz vərəqələrinin satılması.	0	0
20	Bank depozitlərinin netto cəmi (depozitlərin geri qaytarılması çıxılsın yerləşdirilməsi)	-1274000	-2775000.00
21	*İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti*	**-1.053.699,08**	**-6685048.74**

	üzrə yekun.		
	Maliyyə fəaliyyəti.		
22	Alınmış qrantlar	0	0
23	Mənfəət (və ya zərər)	0	0
24	Nizamnamə fonduna qoyuluşlar.	0	0
25	*Maliyyə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti üzrə yekun.*	**0,00**	**0.00**
26	*İl ərzində pul vəsaitlərinin və pul ekvivalentlərinin dəyişməsi*	***-8.308.620,99***	***-2394075.40***
27	*İlin əvvəlinə pul vəsaitləri və pul ekvivalentləri.*	10742934,06	2434313.07
28	*İlin sonuna pul vəsaitləri və pul ekvivalentləri.*	**2.434.313,07**	**40237.67**

7. Kapitalın hərəkəti haqqında hesabat

	Nizamnamə kapitalı	***Əsas vəsaitlər üzrə yenidən qiymətləndirmə ehtiyatı***	***Bölüşdürülməmiş mənfəət***	***Cəmi***
1 yanvar 2017-ci il tarixinə qalıq	8900071.20	144719.80	4513660.08	13558451.08
İl üzrə mənfət(zərər)	0,00	0,00	-1041287.25	-1041287.25
Binalar və avadanlıqlar:	0.00	0.00	0,00	0,00
- Yenidən qiymətləndirmə ehtiyatı	0,00	0,00	0.00	0,00
Ötən dövrlərin düzəlişləri	0.00	0.00	0,00	0,00
31 dekabr 2017-cü il tarixinə qalıq	8900071.20	126778.88	3472372.83	12499222.91
2017-cü il üzrə kapitalda dəyişiklərin cəmi	0,00	-17940.92	-1041287.25	-1059228.17

8. Hiperinflyasiya şəraitində maliyyə hesabatları

Azərbaycan iqtisadiyyatı hiperinfilyasiyalı hesab edilmir. Ona görə də 29 saylı "Hiperinfilyasiya Şəraitində Maliyyə Hesabatları" adlı Beynəlxalq Mühasibat Standartının (BMHS 29) tələbinə görə, maliyyə hesabatlarında heç bir düzəlişlər aparılmamışdır.

İqtisadiyyat artıq hiperinfilyasiyalı olmayan bir vəziyyətdə hiperinfilyasiya müddətinin sonunda mövcud ölçü vahidi ilə ifadə edilmiş məbləğlər gələcək müddətlər üçün yeni ilkin dəyər üçün əsas olacaqdır.

Azərbaycan Respublikasında 2017-ci il üzrə Azərbaycan manatının xarici valyutalara nisbətdə məzənnəsi aşağıdakı səviyyədə olmuşdur.

Valyuta	İlin əvvəlinə məzənnə	İlin sonuna məzənnə
USD	1.7707	1.7001
EUR	1.8644	2.0307
RUR	0.0293	0.0295

"Rəvan Sığorta" ASC-də keçən illərdə 29 saylı BMS-ni maliyyə hesabatlarına tətbiq etməmiş və buna görə də keçən illərdə həmin maliyyə hesabatları və infilyasiyaya uyğunlaşmış maliyyə hesabatları arasında fərqlər müəyyən edilməmişdir.

Maliyyə hesabatı 2 (iki) nüsxədən ibarət tərtib olunmuşdur.

Auditor: _____Musayev Adıgözəl Maqsud oğlu

Sifarişçi təqdim etdiyi hesabatlardakı ilkin məlumatlara görə vahid məsuliyyət daşıyır.

"Rəvan Sığorta" ASC-nin
İdarə Heyətinin sədri: _____F.F.Aslanov

"Rəvan Sığorta" ASC-nin
Maliyyə Departamentinin müdiri-Baş mühasibi:_____F.F.Əliyev